# İbtidai siniflərdə Azərbaycan dilinin təlim materiallarının planlaşdırılması

**Fidan Cabir qızı Vələdova**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
**E-mail:** veledova.fdn@gmail.com

**Rəyçilər:** p.ü.f.d., dos. Ə.M. Abbasov,
p.ü.f.d. A.H. Balıyev

**Açar sözlər:** təhsil, təlim prosesi, plan, cari planlaşdırma, perspektiv planlaşdırma, təlim nəticələri

**Ключевые слова:** образование, учебный процесс, план, текущее планирование, перспективное планирование, результаты обучения

**Key words:** education, learning process, plan, current planning, perspective planning, learning outcomes

Bütün bəşəriyyətə təsir edən texnoloji dəyişikliklər təsərrüfatın hər bir sahəsində olduğu kimi təhsil sahəsində də özünü göstərmişdir. Müasir dövr demək olar ki, ötən əsrlərdən öz inkişaf dinamikasına görə çox fərqlənir. Kompyuter əsri adlandırılan XXI əsr hər bir sahə üzrə insanlara geniş imkanlar bəxş edir. Təhsil sistemi hər bir ölkənin, cəmiyyətin özəyini, əsas dayaq strukturunu həyata keçirir. Bunu nəzərə alaraq dəyişən illər boyu təhsil sisteminin daha da yaxşılaşdırılması üçün müxtəlif islahatlar aparılmışdır. Azərbaycan respublikası da bu istiqamət üzrə müxtəlif təlimlər keçmiş, islahatlar aparmışdır. Keyfiyyətli təhsil nəticələrinə nail olmaq üçün ən başlıcası onu düzgün planlaşdırmaq qarşıda duran ən vacib məsələlərdəndir. Qeyd tmək lazımdır ki, Azərbaycan Respublikasını prezidentinin 2013-cü il 24 oktyabr sərəncamı ilə "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə dövlət strategiyası" təsdiq edilmişdir. Bu strateji istiqamət üzrə müəyyən tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur. Bu istiqamətlərə aşağıdakıları misal göstərmək olar.

1. Şəxsiyyətyönlü təhsilə əsaslanan təlim fəaliyyətinin həyata keçirilməsi.
2. Günümüzün inkişaf dinamikasını nəzərə alaraq insan resurslarının müasirləşdirilməsi.
3. Nəzərdə tutulan təlim nəticələrinin əldə olunması istiqamətində məsuliyyətli fəaliyyətin təmin edilməsi.
4. Keyfiyyətli və səmərəli idarəetmə texnologiyalarının təşkili.
5. Təhsil infrastrukturunun davamlı və bu günün tələblərinə uyğun sisteminin təşkili.
6. Dünya təhsil sisteminin standartlarına uyğun təhsil səviyyəsinin formalaşdırılması planlarının yaradılması.

Bütün mühüm məsələlərin həlli üçün ilk növbədə planlar tərtib edilir ki, bu da öz növbəsində işin uğurlu nəticəsinin əldə olunması üçün ən vacib məsələlərdəndir. "Planlaşdırma geniş mənada hər bir dövlətin inkişaf strategiyasının özəyidir" (2, s. 49). Müəyyən məqsədlərin həyata keçirilməsi üçün müxtəlif strateji planlaşdırma növləri vardır. Təhsildə istənilən nəticənin əldə olunması üçün strateji planlaşdırma təlim fəaliyyətinin ən önəmli xüsusiyyətlərindəndir. Təlim strategiyalarının təşkilinə verilən əsas tələblərdən biri hesab edilən təlim fəaliyyətinin planlaşdırılması şagirdlərin bilik və bacarıqlara düzgün yiyələnməsi istiqamətində qarşıda duran əsas məsələlərdən biridir. Yüksək səviyyədə təhsil əldə etmək üçün müəllimin təlim fəaliyyətinin planlaşdırılması bacarığı yüksək səviyyədə olmalıdır.

Azərbaycan dili mənəvi birliyimizin özəyi rolunu oynadığı üçün, kiçik yaşlardan etibarən uşaqlara öyrədilməlidir. Lakin, elmi səviyyədə Azərbaycan dilinin bir fənn kim təlim prosesinin həyata keçirilməsi bütün dolğunluğu ilə tam formada aparılmalıdır. Planlaşdırmanın əsas xüsusiyyəti ondan ibarətdir ki, ana dilimiz olan Azərbaycan dilinin bir fənn olaraq tədrisi prosesinin təşkilini düzgün və səmərəli formada həyata keçirməyə şərait yaradır. Planlaşdırma hər bir fənn üzrə müəllim fəaliyyətinin tərtibinə əsas istiqaməti verir. Belə ki, müəllim ana dili fənninin tədrisini planlaşdırarkən təlim prosesinin gedişinə həm ümumi bir formada, həm də ayrı-ayrılıqda hissələr olmaqla nəzarət edə biləcək. İlk növbədə təlimin gedişatı prosesini planlaşdırmadan arzuolunan təlim nəticələrini əldə etmək, qarşıya qoyulan vəzifələri layiqincə yerinə yetirmək qeyri mümkündür.

Müəyyən vaxt çərçivəsi ərzində proqram əsasında bütün təlim materiallarının şagirdlər tərəfindən tam şəkildə mənimsədilməsi prosesini təmin etmək, yalnız il boyu deyil, ayrılmış dərs saatı müddətində aparılması fəaliyyətinin həyata keçirilməsi üzə planlaşdırma iki növə ayrılır:

1. Perspektiv planlaşdrma
2. Cari (Gündəlik) planlaşdırma

Hər bir planlaşdırma növü öz xüsusiyyətlərinə görə fərqlilik təşkil edərək təlim prosesi zamanı tədris materiallarının şagirdlər tərəfindən ardıcıl, səmərəli və keyfiyyətli öyrənilməsinə xidmət edir.

***Perspektiv planlaşdırma*** - fransız dilindən götürülmüş "perspektiv plan" ifadəsi məna etibari ilə "gələcəkdə", "qarşıda" duran plan deməkdir. Perspektiv planlaşdırma Ana dili fənninin verilən vaxt ərzində şagirdlərə lazımı qaydada mənimsədilməsini təmin etmək üçün, dərslikdə verilən materialların keyfiyyətli şəkildə öyrədilməsini təmin etmək üçün əvvəlcədən hazırlanmış iş qrafiki hesab oluna bilər. Həmçinin bütün tədris müddətini əhatə edən və bu müddət ərzində təlim materiallarının necə təşkilini nizamlayan, təlim məqsədlərinin reallaşdırılması istiqamətində fəaliyyətin ardıcıl və nizamlı formada təşkilini təmin edən təhsil sisteminin ən əsas komponentlərindəndir. Planlaşdırılmanın aparılması düzgün tərtib olunmalıdır və onu tərtib edərkən bir sıra prinsiplər gözlənilməlidir ki, istənilən təlim nəticələri əldə olunsun. İllik planlaşdırma metodik baxımdan yüksək bacarıq tələb edir və bu müəllimlərin ən vacib vəzifələrindəndir.

"Təqvim planı tərtib edilərkən dərs ilinin həftələri, tədris ilində baş verəcək mühüm hadisələr (tarixi günlər), tədris vahidlərinin və onlara daxil olan mövzuların adı müəyyən edilir. Hər tədris vahidi və mövzu vasitəsilə reallaşdırılacaq məzmun standartları (alt-standartlar) seçilir, istifadə olunacaq mənbələr (resurslar) müəyyən edilir, hər mövzu üçün ayrılmış vaxt qeyd olunur" (1, s. 272).

Perspektiv planlaşdırmanı tərtib edərkən bir sıra nüanslara diqqət yetirilməlidir. Bunlara aşağıdakılar daxildir:

1. Nəzərdə tutulmuş məzmun standartları əsasında dərslikdə yer alan tədris vahidi və mövzular dəqiq müəyyən edilir.
2. Verilən mövzular üzrə məzmun standartları qruplaşdırılır.
3. Tədris vahidlərinin və mövzuların verilmə ardıcıllıqları dəqiqləşdirilir.
4. İnteqrasiya fənləri və ya mövzuları müəyyən edilir.
5. Təlim prosesinin əsas resursları seçilir.
6. Hər bir tədris vahidinin məqsədyönlü vaxt bölgüsü aparılır.
7. Şagirdlərin təlim fəaliyyətinin qiymətləndrilməsi üçün xüsusi meyarlar tərtib edilir.

Ənənəvi təlimdə yer alan fənn üzrə bölmə və yarımbölmələrə müəyyən mövzular daxil idi

ki, bu mövzuların verilmə ardıcıllığı sadədən mürəkkəbə doğru nizamlanmışdı. Fəal təlim metodunda bu bölmə və yarımbölmələr tədris vahidi adlandırılır. Tədris prosesinin il ərzində tədris vahidlərini hansı ardıcıllıq və hansı formada tədrisi illik planlaşdırma üzrə təşkil edilir. Tədris vahidi üzrə mövzular sadədən mürəkkəbə doğru nizamlanmalıdır. Bu şagirdlərin əldə etdiyi bilikləri müəyyən ardıcıllıq üzrə daha da genişləndirərək öyrənib qavramasını təmin edir. Ənənəvi təlimdən fərqli olaraq yeni kurikulum sistemi üzrə tədris vahidləri standartlara əsasən müəyyən edilir. Verilən standartlar şagirdlərə mənimsədikləri biliklər üzrə bütün bilik və bacarıqlarını əlaqələndirmə imkanı verir.

İnteqrasiya tədris olunan mövzu üzrə iki növə ayrılır:

***1. Fənndaxili – yeni mövzunun keçirilmiş köhnə mövzular ilə əlaqələndirən inteqrasiya***

***2. Fənlərarası – tədris edilən yeni mövzunu digər fənlər ilə əlaqələndirən inteqrasiya***

Digər fənlər ilə inteqrasiya olunmuş mövzular şagirdlərin əldə etdikləri yeni bilikləri ümumiləşdirərək ətraf aləmlə əlaqələndirməsini təmin edir. Və bu şagirdlərin idrakında dünyagörüşün artırılmasına zəmin yaradır.

İllik planlaşdırma apararkən tədris prosesinin ən vacib elementlərindən biri olan təlim resurslarının seçilməsidir. Dərslikdən əlavə olaraq müxtəlif mənbələr resurs rolunu oynaya bilər. Bunun planaşdırmada qeyd edilməsi təbiidir ki, təlim prosesinin yüksək səviyyədə keçirilməsinə zəmin yaradacaqdır. Həmçinin şagirdlərin dərs prosesi zamanı müxtəlif resurslarla işləmə imkanlarının olması onlarda dərsə marağın artmasına və beləliklə keyfiyyətli təlim nəticələrinin əldə edilməsinə şərait yaradacaqdır. Lakin, resursların və müxtəlif təlim vəsaitlərinin seçilməsi elə planlaşdırılmalıdır ki, bu onların yaş xüsusiyyətlərinə və ümumi sinif səviyyəsinə uyğun olsun.

Tədris vahidləri vaxt bölgüsü üzrə elə planlaşdırılmalıdır ki, il ərzində tədris vahidləri üzrə verilən mövzuların tədrisi prosesi tamamlansın. Bununla yanaşı Ana dilimizin dərindən və dolğun şəkildə öyrənilməsi əsas götürülsün. Ölkəmizdə qeyd edilən əlamətdar gülər, bayramlar, xüsusi mənəvi dəyərə mənsub hadisələrin tarixinə uyğun müəyyən məlumat və biliklərin verilməsi eyni zaman çərçivəsində həyata keçirilsin. İllik planaşdırılmanın bu xüsusiyyətləri nəzərə alaraq tərtibi kiçik yaşlarından uşaqlarda milli mənəvi dəyərlərin formalaşmasına gətirib çıxaracaqdır. Vaxt bölgüsü şagirdlərin qavrama xüsusiyyətlərindən asılı olaraq da dəyişdirilməlidir. Dərs saatlarının mövzudan asılı olaraq azaldılması və yaxud artırılması təşkil edilə bilər. Qiymətləndirmə təlim fəaliyyətinin hansı səviyyədə yerinə yetirildiyinin yoxlanılması prosesidir. İllik planlaşdırma üzrə kiçik və böyük summativ qiymətləndirmələr öz əksini tapır. Tədris vahidləri üzrə şagirdlərə verilən biliklərin yoxlanılması müəyyən meyarlar əsasında aparılmalıdır. Bu meyarlar təlim nəticələrinin əvvəlcədən düşünülmüş məqsədləri əsasında tərtib edilməlidir.

Bütün bunları nəzərə alaraq perspektiv planlaşdırmanın aparılması zamanı müəllimlər planlaşdırmanı yüksək səviyyədə tərtib etmək üçün bir neçə məqamlara toxunaraq daha da təkmilləşdirə bilərlər.

1. Metodik vəsaitlərdə və dərsliklərdə müəyyənləşdirilmiş standartlar qrupuna əlavə standartlar daxil etmək.
2. İnteqrasiya üçün əlavə imkanlar yaratmaq.
3. Mövzularda dəyişikliklər etmək yaxud onlara əlavələr artırmaq.
4. Resurs müxtəlifliyi təşkil etmək.
5. Mövzular üzrə vaxt bölgüsündə müxtəlif dəyişikliklər etmək.

Müəllimlərin dövlət tərəfindən təmin edildiyi metodik vəsait planlaşdırmanın əsasını təşkil edən ən lazımi vəsaitdir. Metodik vəsait mövzuların ardıcıllıqları, saatları və onların inteqrasi-

ya istiqamətləri verilməklə tərtib edilir. Sırf metodiki vəsaiti əsas götürərək illik planlaşdırmanın tərtibi vacib olmadığı kimi, sadəcə olaraq müəllim üçün nəzərdə tutulan dərs saatından kənara çıxmayaraq mövzuları müəyyən etmək şərti ilə perspektiv planlaşdırmanın təşkili nəzərdə tutulur.

**1. *Cari planlaşdırma*** - Müasir dövrün tələblərinə uyğun təhsil sistemində bir çox geniş imkanlara sahibik. Yeni texnologiyalar əsrində olmağımız təhsil sistemində də bizi məlumat bolluğu ilə təmin edir. Tədris edilən hər bir fənnin özünəxas məqsədlərinin yerinə yetirilməsindən əlavə, onların tədrisinin müasir üsullarla və yeni informasiya toplumunun tələblərinə uyğun təşkil etmək lazımdır. Tətbiq edilən yeni fənn kurikuliumu təlim prosesinin daha fəal təşkilini təmin edir. Yeni sistemlə artıq təlim prosesi zamanı şagirdlərin fəaliyyəti daha ön planda olur. Bunun üçün gündəlik dərsin planlaşdırılmasını elə təşkil etmək lazımdır ki, o şagirdlərin marağına uyğun olsun. Müəllimin metodiki bacarığından asılı olaraq fənnin tədrisini, həlli vacib olan vəzifələrin yerinə yetirilməsini, planlanmış məqsədlərin həyata keçirilməsini, günün tələblərinə müasir şəkildə cavab verən şəxsiyyətlərin formalaşdırılmasına nail olmaq üçün gündəlik dərsin planlaşırılmasına xüsusi diqqət ayırılmalıdır. İstənilən nəticələrin əldə edilməsi üçün dərsin gedişatı və məzmunu əvvəlcədən planlaşdırılmalıdır. Cari planlaşdırma aparılarkən aşağıdakı amillərə diqqət yetirilməlidir.

1. Planlaşdırma aparılarkın ilk növbədə mövzu üzrə hansı təlim standartlarının reallaşdırılmasının müəyyənləşdirilməsi.

2. Seçilmiş standartlara uyğun mövzunun tədrisində təlim məqsədinin müəyyənləşdirilməsi (bilik, bacarıq və vərdişlər).

3. İnduktiv (xüsusidən ümumiyə doğru) və ya deduktiv (ümumidən xüsusiyə doğru) istiqamətlərin müəyyənləşdirilməsi.

4. Təlim prosesi zamanı onun hər bir mərhələsinin planlaşdırılması və mərhələ üzrə iş üsullarının müəyyənləşdirilməsi (hər mərhələ üzrə müəyyən vaxt bölgüsü aparılır).

5. Mərhələlər üzr tapşırıqların verilməsi. Tapşırıqlar əvvəlcədən nəzərdə tutulmuş təlim məqsədlərini yerinə yetirməli, dərsin məzmununu tam olaraq əhatələməlidir.

6. Şagirdlərin diqqətini fəal təlim prosesinə cəlb etmək üçün qeyd olunan amilləri müəyyən etmək lazımdır: 1. Problemin qoyuluşu; 2. Sualların verilməsi; 3. Tapşırıqlar təşkili; 4. İş vərəqlərinin hazırlanması; 5. Mənbələrin seçilməsi.

7. Aktiv fəaliyyəti davam etdirmək üçün müəllimin xüsusi materiallarının olması. Bunlara misal olaraq: 1.Müzakirə prosesindən sonra yarana biləcək hər hansı problemin həlli üçün yeni sual variantlarının olması. 2. Şagirdlərin verə biləcəyi cavab versiyaları. 3. Şagirdlərin dərsə marağının artırılması üçün illüstrasiyaların istifadəsi 4. Məlumatların müzakirəsi zamanı əldə edilən fikirlərin lövhə və ya plakatlara yazılması və s.

Cari planlaşdırma aparılarkən bir sıra sualların cavablandırlmasına yönəlik fəaliyyət izlənilməlidir. Bu zaman qarşıya bu suallar çıxır: Nə öyrənilməlidir? Necə öyrənilməlidir? Hansı şəraitdə öyrəniləcək? Şagirdlərin fəaliyyəti hansı formada qiymətləndiriləcək?

Dərsin təşkili zamanı diqqət yetirilməli prinsiplər vardır ki, onları aşağıdakı kimi qeyd etmək olar:

***1. Pedaqoji prosesin tamlığı*** – Pedaqoji prosesin inkişafetdirici, öyrədici və tərbiyəedici, real nəticələr əsaslanan müəllim-şagird fəaliyyətinin olmasıdır

***2. Təlimdə bərabər imkanların yaradılması*** - bütün şagirdlərin eyni imkanlar daxilində təhsil alması, onların idraki bacarıqlarını əsas götürərək təlim şəraitinin yaradılmasıdır.

***3. Şagirdyönlülük*** - ənənəvi təlimdən fərqli olaraq, fəal təlim prosesi zamanı şagirdlər daha aktiv olur və təlim prosesnin mərkəzində dayanır. Təlim prosesi şagirdlərin fəal təliminə və

onların bilik və bacarıq imkanlarının genişləndirilməsinə xidmət edir.

***4. İnkişafyönlülük*** - şagirdlərin məntiqi bacarıq xüsusiyyətləri izlənilir, qabiliyyətləri müəyyənləşdirilir, bilik, bacarıq və vərdişlərinin inkişaf səviyyələri nizamlanmasıdır.

***5. Fəaliyyətin stimullaşdırılması*** - təlim prosesinin şagirdlərinin maraq dairələrinə uyğun olaraq daha səmərəli və effektli təşkili, şagird fəaliyyətinin izlənilərək xüsusiyyətlərinin dəyərləndirilməsi, son olaraq isə şagirdlərin daha keyfiyyətli təlim nəticələrinin əldə edilməsinə yönəldilmiş fəaliyyətlərin həyata keçirilməsidir.

***6. Dəstəkləyici mühitin yaradılması*** - şagirdləri yeni və müasir maddi-texniki baza ilə təmin etmək, təlim prosesinin mənəvi baxımdan sağlam şəraitdə keçirilməsi, təhsilin keyfiyyətinin yüksəldilməsi üçün əlverişli və təhlükəsiz şəraitin yaradılmasıdır.

Aşağıda göstərilmiş cədvəldə cari dərsin planlaşdırlması və dərs prosesinin planlaşdırılması mərhələləri qeyd olunmuşdur.

| ***Gündəlik dərsin planlaşdırılması mərhələləri*** | ***Dərs prosesinin mərhələləri*** |
|---|---|
| Mövzu | Motivasiya. Problemin qoyulması |
| Standart | Tədqiqatın aparılamsı. Problemin həlli |
| Təlim məqsədi ( verilmiş standartlara əsaslanaraq) | Məlumatın mübadiləsi |
| İnteqrasiya | Məlumatın müzakirəsi |
| İş forması | Nəticə və ümumiləşdirmələr |
| İş üsulları | Ev tapşırığı |
| Resurslar | Qiymətləndirmə (dərs prosesi boyu aparılır) |

Gündəlik planlaşdırmanın düzgün təşkili hər zaman yeni bilik və bacarıqların mənimsənilməsi üçün səmərəli və keyfiyyətli şəkildə təlim prosesi zamanı şagirdlərin fəaliyyətindən asılıdır. Bunu ön plana çəkərək istər perspektiv, istərsə də cari planlaşdırma tərtib edərkən bütün məqsəd və prinsiplər gözlənilməlidir.

**Məqalənin aktuallığı.** Azərbaycanda həyata keçirilən təhsil islahatları müəllimlərin öz işlərinə ciddi yanaşmalarını, fənlərin tədrisini yeni tələblər əsasında qurmalarını, bunun üçün, ilk növbədə, müasir planlaşdırma nümunələrindən istifadə etmələrini tələb edir. İbtidai siniflərdə Azərbaycan dili üzrə hazırlanmış bu məqalə həmin tələbə uyğun olmaqla xüsusi aktuallıq kəsb edir.

**Məqalənin elmi yeniliyi.** Məqalədə ilk dəfə olaraq yeni standart və kurikulumların tələblərinə uyğun həyata keçiriləcək cari və perspektiv planların nəzəri-metodik əsaslarına dair araşdırmalar aparılır və şagirdlərin inkişafını dəstəkləyən nəticələrə gəlinir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** İbtidai siniflərdə Azərbaycan dili dərsi deyən müəllimlərin məzmun standartları əsasında planlaşdırma apara bilmək fəaliyyətindəki çətinlikləri nəzərə alınmış, uyğun istiqamətlərdə tövsiyələr hazırlanmışdır. İlkin qənaətimizə əsasən, müəllimlər özlərinin planlaşdırma fəaliyyətində uğur qazanmaq üçün  bu tövsiyələrdən yaralana biləcəklər.

## Ədəbiyyat

1. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün fənn kurikulumları (I-IV siniflər). Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutunun Təhsil Texnologiyaları Mərkəzi, Bakı, 2008.

2. Balıyev H.B. Azərbaycan dilinin tədrisi metodikası. Bakı: Qismət, 2014.
3. https://azedu.az/az/news/9751
4 https://metodiktovsiyye.blogspot.com

**F.C. Бадалова**

## Планирование учебных материалов азербайджанского языка в начальных классах

### Резюме

Одна из важных задач в системе образования — это планирование предмета, чтобы обеспечить реализацию целей, поставленных предметом, преподаваемым в упорядоченном и последовательном порядке. Планирование по самой своей природе должно быть всеобъемлющим и должным образом, организованным для достижения желаемых результатов обучения. Обеспечение высокого уровня восприятия и долговременной памяти необходимых знаний и навыков учащимися в процессе обучения напрямую связано с планированием учебного процесса в зависимости от методических навыков учителя-предметника. Хотя каждый из двух типов планирования, перспективного и текущего, отличается по своим конструктивным особенностям, целям и задачам, любой высокий уровень образования достигается в результате их совместной деятельности.

**F.C. Badalova**

## Planning of teaching mateials of the Azerbaijani language in primary school

### Summary

One of the important tasks in the education system is to plan the subject in order to ensure the realization of the goals set by the subject taught in an orderly and consistent manner. Planning, by its very nature, must be comprehensive and properly organized in order to achieve the desired learning outcomes. Ensuring a high level of perception and long-term memory of the necessary knowledge and skills by students during the learning process is directly related to the planning of the learning process, depending on the methodological skills of the subject teacher. Although each of the two types of planning, perspective and current, differs in their design features, goals and objectives, any high level of education is achieved as a result of their joint activities.

**Redaksiyaya daxil olub:** 01.12.2021